

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (21.701)

25 fevral 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Mahmud Əli Yusufun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən dövlətimizin başçısı Cibuti Respublikası parlamentinin Xocalı soyqırımının tanınması barədə qəbul etdiyi qərara görə minnətdarlığını bildirdi, bunu qardaşlıq münasibətlərimizin və ölkəmizə dəstəyin mühüm göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin Azərbaycana səfərinin uğurlu və səmərəli olacağına, səfərin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Nazir Mahmud Əli Yusuf qeyd etdi ki, Bakı kimi gözəl bir şəhərdə qardaşcasına qarşılanmasından məmnunluq duyur. Azərbaycanın artıq güclü bir dövlətə çevrildiyini məmnunluqla qeyd edən Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Azərbaycanın ədalətli mövqedə olduğunu, buna görə də beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyini vurğuladı.



## 2017-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2017-ci ilin yanvar ayında 156 milyon 914 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz artaraq 349,2 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 88 milyon 215 min 500 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,1 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 47 milyon 120 min 500 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il önceki göstəricidən 0,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 44 milyon 584 min 500 manatı və ya 94,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin həcmi 3 milyon 810 min 500 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin həcmi ilə müqayisədə 4,4 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin həcmi 2 milyon 950 min 700 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

* * *

Ötən ay 7 milyon 179 min 900 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,1 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 1830,7 ton ət, 1937,1 ton süd istehsal edilmiş, 2016-cı ilin yanvar ayı ilə müqayisədə ət istehsalı 8,5 faiz, süd istehsalı 1,2 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar ayında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 103 milyon 537 min 200 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,2 faiz yüksələrək 230,4 manat təşkil etmişdir.

* * *

2016-cı ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 413,2 manat təşkil etmiş və bu göstərici 2015-ci illə müqayisədə 3,4 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 fevral 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 55138-ə çatmışdır ki, bunun da 46934-ü və ya 85,1 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar ayında açılmış 9236 bank hesabının 9234-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 fevral 2017-ci il tarixə 1209-a çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar ayında muxtar respublikada 24 milyon 681 min 300 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1 faiz artaraq 23 milyon 830 min 600 ABŞ dolları, idxalın həcmi 50,1 faiz azalaraq 850 min 700 ABŞ dolları təşkil etmiş, 22 milyon 979 min 900 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 1 milyon 74 min 200 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 363 min 300 manatı və yaxud 33,8 faizi qısamüddətli, 710 min 900 manatı və yaxud 66,2 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 345 min 500 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çoxdur.

* * *

2017-ci ilin yanvar ayında muxtar respublikaya 16 min 265 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 6,8 faiz və ya 1034 nəfər çoxdur.

* * *

1 yanvar 2017-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4720 nəfər və ya 1,1 faiz artaraq 449143 nəfər təşkil etmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 25-ci ildönümü qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 25-ci ildönümü qeyd olunub. Tədbir iştirakçıları əvvəlcə ümummilli liderimizin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.*

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən tədbiri giriş sözü ilə açan komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli kollektivi təbrik edərək müstəqillik dövründə muxtar respublika gömrük orqanlarının keçdiyi inkişaf yolundan danışıb. Vurğulanıb ki, 25 il bundan öncə, 1992-ci il fevralın 24-də ümummilli lider Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması ilə muxtar respublikada vahid mərkəzdən idarə olunan gömrük siyasətinin tətbiqinə başlanılıb.

Qeyd olunub ki, dahi rəhbərin ideyalarının uğurla davam etdirilməsinin nəticəsində son illərdə muxtar respublikada gömrük xidmətinin müasir tələblər səviyyəsində təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Gömrük orqanlarının strukturu daha da genişləndirilib, infrastruktur yenidən qurulub, maddi-texniki baza müasir tələblər səviyyəsində formalaşdırılıb. İnformasiya-kommunikasiya texnologiyalarından geniş istifadə nəticəsində gömrük sistemi tamamilə avtomatlaşdırılıb. Göstərilən yüksək dövlət qayğısı hesabına gömrük orqanları muxtar respublikanın iqtisadi təhlükəsizliyinin etibarlı təminatçısına çevrilib.

Komitənin Statistika və informasiya texnologiyaları şöbəsinin rəisi, gömrük xidməti mayoru Emin Eylazov "İnformasiya-kommunikasiya texnologiyalarının gömrük xidmətinin inkişafında rolu", Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektor, gömrük xidməti mayoru Rahil Tahirli "Gömrük orqanlarında kadr islahatları və gəncləşmə" mövzularında məruzə ediblər.

Komitənin Ümumi şöbəsinin rəisi, gömrük xidməti mayoru Minayə Nəsirova muxtar respublika gömrük orqanları əməkdaşları barəsində tətbiq olunan həvəsləndirmə tədbirləri barədə məlumat verib. "İlin gömrükçüsü" müəyyən olunaraq mükafatlandırılıb.

Sonda tədbir iştirakçıları Naxçıvan televiziyasının hazırladığı "İnkişaf edən gömrük xidməti – 25 il" adlı filmə baxıblar.

## Gənc əməkdaşlar gömrük andı içiblər



***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 25-ci ildönümü ilə bağlı muxtar respublika gömrük orqanları sıralarına yeni qəbul olunmuş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.***

Gömrük andını sınaq müddəti bitmiş və ilk xüsusi rütbələr verilmiş 17 gömrükçü qəbul edib.

Əməkdaşlar təntənəli surətdə and içiblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini Səhət Həbibbəyli gömrük andını qəbul etmiş əməkdaşları təbrik edərək onlara uğurlar arzulayıb. Bildirilib ki, əsl gömrükçü olmaq üçün bu peşənin sirlərinə dərindən yiyələnməli, işdə məsuliyyətli olmalı, qanunvericiliyin tələblərinə sözsüz riayət etməli, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində mütəşəkkillik göstərilməlidir. "Hər şey nizam-intizamdan başlayır", – deyən sədr müavini gənc gömrükçüləri təşəbbüskar və yenilikçi olmağa çağırıb.

Vurğulanıb ki, hər bir gömrükçü iş prosesinin sadələşdirilməklə daha da təkmilləşdirilməsi, dünya təcrübəsinin öyrənilməsi və müsbət ənələrin tətbiqi üçün təkliflərlə çıxış etməli, muxtar respublikada gömrük işini daha da irəli aparmaq üçün vicdanla çalışmalıdır. Gömrükçü öz sahəsini mükəmməl öyrənməklə yanaşı, elmi biliklərini daim artırmalı, ulu öndər Heydər Əliyevin ideyaları, Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməlidir.

Andiçmə mərasimindən sonra gənc gömrükçülər Naxçıvan şəhərində yerləşən Dövlət Bayrağı Muzeyini ziyarət ediblər. Muzeydə ziyarətçilərə Azərbaycanın, o cümlədən Naxçıvanın qədim dövlətçilik tarixi, qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilib.

**Xəbərlər şöbəsi**

***Xocalı soyqırımının törədilməsindən 25 il ötür. 26 fevral xalqımızın qan yaddaşı, mübarizlik, qəhrəmanlıq, rəşadət tarixidir. Bizə dədə-baba əmanəti olan doğma torpaqlarımız uğrunda şəhidliyə ucalmaq məqamıdır. O gün Xocalı sakinləri sübut etdilər ki, uğrunda qan tökülən torpaq vətəndir.***

# Tariximizin qan yaddaşı: Xocalı soyqırımı




Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 yanvar tarixli Sərəncamında deyilir: ***"Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır. 2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir".***

Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2017-ci il yanvarın 31-də Sərəncam imzalamışdır.

...Qədim və zəngin tarixə malik olan ölkəmiz tarixin dolaylarında çox çətin məqamlarla üzləşmiş, faciələr yaşamış, şəhidlər vermiş, ancaq xalqımız heç vaxt öz mətanətini itirməmiş, qarşılaşdığı hər bir çətinliyin önündə məğrur dayanmışdır. XIX və XX əsrlərdə belə faciələr daha çox olmuşdur. Bu qanlı hadisələrin əksəriyyəti insan mənəviyyatından uzaq iyrənc bir ideologiyanın əsirinə çevrilmiş, xalqımızın düşməni olan ermənilər tərəfindən törədilmişdir. XIX əsrdə məqsədli şəkildə Qafqaza yerləşdirilmiş ermənilərin tarixi torpaqlarımızın zəbt olunmasına hesablanmış siyasətindən regionda maraqları olan işğalçı qüvvələr zaman-zaman istifadə etmişlər. Azərbaycan xalqı həmişə öz istiqlalına can atanda, müstəqilliyi uğrunda mübarizə aparanda bu qüvvələr ermənilərdən bir vasitə kimi istifadə etmiş, Azərbaycanda soyqırımı törətmiş, xalqımıza qarşı deportasiya siyasətini həyata keçirmişlər. Ötən əsrin əvvəllərində Azərbaycan öz istiqlalı uğrunda mübarizəyə qalxanda kütləvi qırğınlar törədilmiş, Bakıda və ölkəmizin digər şəhərlərində xalqımız soyqırımına məruz qalmışdır. Tarix XX əsrin sonunda da təkrar olunmuş, xalqımız özünün istiqlal mübarizəsində 20 Yanvar faciəsini yaşamış, bundan iki il sonra törədilən Xocalı soyqırımı qan yaddaşımıza əbədi həkk olunmuşdur.

Xocalı soyqırımı öz miqyasına görə XX əsrin Xatın və Sonqmi faciələri ilə bir sırada dayanır. Bu təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş ən ağır cinayətlərdən biridir.

Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlamışdı. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalmışdır. Xocalı birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə yandırılmışdır. Nəhayət, 1992-ci ildə Xocalıda üçüncü dəfə daha qanlı, daha dəhşətli faciə törədilmişdir.

Ciddi strateji əhəmiyyət daşıyan Xocalı faktiki olaraq ermənilərin yolu üstündə böyük bir maneə idi. Xocalı öz coğrafi mövqeyi ilə Dağlıq Qarabağda həm magistral yolun, həm də dəmir yolunun üstündə yerləşir. Dəmir yolu Xocalının içindən keçirdi, hava limanı da burada idi. Ona görə də ermənilər hər vəchlə Xocalının əhalisini didərgin salmağa, məhv etməyə və bu ərazini ələ keçirməyə çalışırdılar. Onlar Xocalı şəhərini hədəfə almaqla Qarabağın dağlıq hissəsində strateji əhəmiyyətli maneəni aradan qaldırmaq, Qarabağı yalın əllə olsa belə, müdafiə edən, öz ata-baba yurdlarını qoruyan azərbaycanlıların iradəsini sındırmaq istəyirdilər.

Tarixən azərbaycanlılara məxsus olan Xocalı həm də tarix məbədgahı idi. Xocalı o yaşayış məskəni idi ki, Azərbaycan tarixinin qədim dövrlərdən müasir dövrə qədərki mərhələsini özündə əks etdirirdi. Tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşən zəngin mədəniyyət məhz burada təşəkkül tapmışdı. Bu ərazi siklopları, kurqanları və digər abidələri ilə Azərbaycanın qədim tarixini yaşadırdı. Deməli, məqsəd həm də azərbaycanlılara məxsus bu mədəniyyəti Yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal edilən kimi onun ətrafında olan qədim Xocalı qəbiristanlığı darmadağın edilmişdir.

... 1991-ci ilin oktyabr ayından blokada vəziyyətinə alınmışdı Xocalı. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsildiyindən yegane nəqliyyat vasitəsi olaraq vertolyotdan istifadə edilirdi. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun ermənilər tərəfindən vurulması və nəticədə, 40 nəfərin həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi. Şəhər ancaq əhalinin və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi üçün yerli özünümüdafiə dəstəsi təşkil edilmişdi.

Xocalı erməni silahlıları tərəfindən fevralın ortalarından başlayaraq mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər.

Bu gün dünya ictimaiyyətinə məlumdur ki, Xocalı faciəsindən 3-4 gün sonra, 1-3 mart 1992-ci ildə 200-ə yaxın azərbaycanlı əsir ermənilər tərəfindən dəhşətli şəkildə qətlə yetirilmişdir. Xocalı qətliamının icraçılarından biri olan David Xeyreyan "Xaç naminə" kitabında etiraf etmişdir ki, "fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa tökdülər və cəsədlərdən keçid körpü düzəltdilər. Mən ölülərin üzərindən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: "Qorxma, ürəklə keç! Bu hal müharibənin qanunlarından biridir". Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üzərindən adlayıb bataqlığı keçdim... Ayaqlarım və fotokameram qana batmışdı".

"Dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit məhkəmə-tibbi ekspertizadan keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür". Bu məlumat Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinə məxsusdur.

Xocalıda istifadəsi qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilməsi də həmin mərkəzin məlumatında öz əksini tapmışdır. Bütün bu faktlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq dinc sakinlərə qarşı soyqırımı həyata keçirdiyini təsdiqləyir.

Soyqırımının şahidi olmuş rus zabiti, polkovnik V.R.Saveleyev hadisə ilə əlaqədar hazırladığı arayışda yazırdı: "İnsanların güllədən keçirilmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Yazdığımız məxfi arayışı Kremlə və Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinə göndərdim və "oxuyun, görün biz rus zabitlərinin şərəfi necə ləkələndi", – dedim".

Həmin dövrdə Azərbaycana rəhbərlik edənlər Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Lakin həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənləri və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir.

Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən, bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat $17^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanların, Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir.

Bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülmüş, xarici dillərdə kitablar nəşr olunmuş, Xocalı soyqırımı müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilmiş, bununla bağlı internet saytları yaradılmışdır. Heydər Əliyev Fondu tərəfindən "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan mühüm addımlardan biridir. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır. Bu gün dünya Xocalı soyqırımından xəbərdardır, onun tanınması istiqamətində görülən işlər də öz bəhrəsini verməkdədir. Xocalı soyqırımının 25 illiyi ərəfəsində Şotlandiya Parlamenti həmin qanlı qırğına siyasi qiymət verilməsi haqqında qətnamə qəbul etmişdir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində görülən işlər ardıcıl xarakter daşıyır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımına etiraz edənlərin sayı dünyanın hər yerində ildənilə artmaqdadır. 2012-ci il fevral ayının 2-də Meksika Senatının qəbul etdiyi qərarda Xocalıda 1992-ci ildə baş vermiş faciə soyqırımı adlandırılmış, elə həmin il Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş soyqırımını pisləyən qətnamə qəbul etmişdir. 2012-ci ilin aprel ayında isə Kolumbiya parlamenti 102 deputatın lehinə səs verməsi nəticəsində Xocalı soyqırımını rəsmən tanımışdır.

Amerika Birləşmiş Ştatlarının bir çox ştatları da artıq bu faciəni soyqırımı və qətliam kimi tanımışdır. Massaçusets ştatının nümayəndələr palatası, Texas, Nyu-Cersi, Corciya, Arkanzas və Nyu-Meksiko və başqa ştatları Xocalı şəhərində törədilənləri soyqırımı və qətliam kimi tanımışdır. Bu günlərdə ABŞ-ın İndiana ştatının qubernatoru Erik Holkomb xüsusi bəyannamə imzalayaraq, 26 fevral tarixini İndianada "Xocalını Anma Günü" elan etmişdir.

Onu da xatırladaq ki, 2013-cü ilin fevral ayının əvvəlində Amerika Birləşmiş Ştatlarında yaşayan azərbaycanlılar ermənilərin törətdiyi Xocalı soyqırımının tanınması məqsədilə Ağ Evin rəsmi internet səhifəsində petisiya yerləşdirmişlər. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinə və erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal olunması faktına qarşı yönəlmiş petisiya da Ağ Evin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bu, bir daha təsdiq edir ki, milliyyətindən və harada yaşamasından asılı olmayaraq, insanlar haqqın, ədalətin yanındadır. Dünya xalqları Xocalıda törədilən soyqırımına və Azərbaycanın tarixi torpaqlarının işğalı faktına biganə qalmırlar.

Bu sahədə Xocalı sakinləri də aktiv fəaliyyət göstərirlər. Hələ bir neçə il bundan əvvəl, Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Xocalı sakinlərinin dünya xalqlarına, Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına 2012-ci il 6 fevral tarixli müraciətində deyilir: "Təsəvvür etmək belə çətindir ki, tarixdə analoqu olmayan bu cür qəddarlıq və vəhşilik XX əsrin sonunda, dünyanın gözü qarşısında baş vermişdir! Ancaq dünya bilib agah olmalıdır: təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə, bəşəriyyətə qarşı törədilmiş bu tarixi cinayətin təşkilatçısı özünü bütün dünyaya "əzabkeş və məzlum millət" obrazında təqdim edən davakar erməni millətçiliyidir".

***Ancaq həmin "əzabkeş və məzlum millət" ötən ilin aprel hadisələrini, yəqin ki, unutmayıb. Bu xalqın Mübariz İbrahimov, Çingiz Qurbanov kimi oğulları gündən-günə artır. Ali Baş Komandanın bircə tapşırığı kifayətdir ki, əsli-kökü olmayan ermənilər əzəli Azərbaycan torpaqlarından çıxarılsın. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlər ötən hər gün bu problemin həllində öz sözünü deyir, bizə o torpağa qayıdacağımız günü yaxınlaşdırır. Xalqımıza məxsus olan yüksək vətənpərvərlik ruhu, yurda bağlılıq, torpaqlarımızın hər qarışına və ölkəmizin sabahına, ərazi bütövlüyümüzə cavabdehlik hissi, hər bir azərbaycanlının damarlarında axan qan o günün uzaqda olmadığına inamımızı daha da artırır.***

**"Şərq qapısı"**

# Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi gün uzaqda deyil

*Ordu hər bir ölkənin müstəqilliyinin təminatçısıdır. Bu təminat əldə olunmadan heç bir ölkədə sabitlikdən, deməli, həm də inkişafdan danışmaq mümkün deyil. Müasir dövrdə təhlükəsizliyimizin və hərtərəfli inkişafımızın qarantı Azərbaycan Respublikasının Silahlı Qüvvələridir. Bu gün ordumuz müharibə vəziyyətində olan ölkəmizin təhlükəsizliyində mühüm rol oynayır. Torpaqlarımızı işğalda saxlayan düşmənlərimizə qarşı hər an aktiv döyüş əməliyyatlarının başlanma ehtimalının çox olduğu bir dövrdə ordumuzun əhəmiyyəti daha da artır.*

Onu da qeyd edək ki, dünyanın əksər ordularından fərqli olaraq Azərbaycan Ordusunun yaradılması sülh və təhlükəsizlik şəraitində deyil, əksinə, ölkəmizin ərazi bütövlüyünün pozulduğu, suverenliyinin təhlükə qarşısında qaldığı və yenicə bərpa olunmuş müstəqilliyinin kövrək bir dövrünə təsadüf edib. Belə bir çətin dövrdə isə torpaqlarımızın iyirmi faizdən çoxu işğal olunub, ölkəmizin müxtəlif bölgələrində əliyalın əhali qəddar düşmənlə üz-üzə qalaraq mübarizə aparıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəmizi daha böyük işğal dalğalarından, əhalini qırğınlardan və ən nəhayət, dövlət müstəqilliyimizi itirilmək təhlükəsindən qoruyub. Ulu öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə iqtisadiyyatı gücləndirib, Milli Ordu qurub. Görkəmli dövlət xadimi Heydər Əliyev, əslində, bu prosesə hələ Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə başlayıb. Belə ki, 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması və Naxçıvan ərazisindəki sovet hərbi hissələrinin arsenalının bütünlüklə Müdafiə Komitəsinə təhvil verilməsi Azərbaycanda ilk milli ordu quruculuğu sahəsində atılmış addımlar idi. Sonrakı dövrlərdə isə ordu quruculuğu prosesi ölkəmizdə prioritet istiqamətlərdən biri kimi seçilərək müasir dövrümüzədək qısa tarixdə böyük yol keçib.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğuna bu gün dövlətimiz tərəfindən göstərilən hərtərəfli qayğı bu prosesin yeni mərhələyə qədəm qoymasına şərait yaratmaqla yanaşı, ölkəmizin regionda nüfuzunun artmasına da öz təsirini göstərib. Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, ordu quruculuğu prosesində ölkə ərazisinin geostrateji mövqeyi mühüm rol oynayır. Çünki mühüm coğrafi ərazilər təkcə iqtisadi-siyasi deyil, həm də hərbi-strateji əhəmiyyətinə görə seçilir. Buna görə də sülh və müharibə şəraitində ölkənin hava, dəniz və quru sərhədlərinin etibarlı qorunması aidiyyəti ərazilərdə müvafiq qoşun birləşmələrinin dislokasiyasından və döyüş hazırlığından birbaşa asılıdır. Məhz bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər bir çox əhəmiyyətli tərəfləri ilə diqqəti cəlb edir.

Məlumdur ki, Naxçıvan Muxtar Respublikası coğrafi cəhətdən ölkənin əsas torpaqlarından ayrı düşüb. Bu tarixi ədalətsizliyin acı nəticələri ilə Naxçıvan keçən əsrin sonlarında çox qarşılaşıb. Ancaq ulu öndər Heydər Əliyevin ötən əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi nəticəsində bu qədim diyar qorunub saxlanılıb. Həmin dövrdən başlayaraq muxtar respublikada ordu quruculuğu bir çox mərhələlərdən keçib və hər ötən il hərbi hissələr daha da təkmilləşdirilib. 2013-cü ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması isə Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələ təşkil edib. Qısa müddət ərzində Əlahiddə Ümumqoşun Ordusu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunub, ştat cədvəli üzrə mülki və hərbi kadrların sayı dəfələrlə artırılıb. Muxtar respublikadakı hərbi birləşmələrin döyüş gücünün artırılması məqsədilə ən müasir döyüş silahları regionda yerləşdirilib. Bu silahlara piyada döyüş vasitələrindən tutmuş müasir artilleriya qurğuları və hava hücumundan müdafiə sistemlərinədək müxtəlif növlərdə texniki vasitələr daxildir.

Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaradıb. Mövcud hərbi hazırlıqlar Əlahiddə Ümumqoşun Ordusunun regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirməyə imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil ordu quruculuğu strategiyası bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Nəticədə, ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Hər il yeni əsgəri yaşayış kompleksləri istifadəyə verilir, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təmin olunur, Azərbaycan Ordusunun döyüş qabiliyyəti artırılır. Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər dövlət müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altındakı torpaqlarımızın azad edilməsinə xidmət edir. Artıq muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələr sərhədlərimizi etibarlı qorumaqla yanaşı, həm də işğal altındakı torpaqlarımızı azad etməyə qadirdilər".***



Ordunun gücü yalnız çoxsaylı silahlarla, hərbi texniki vasitələrlə ölçülmür. Hərbi hissələrə hər səfərimizdə şahidi oluruq ki, şəxsi heyətin mənəvi-psixoloji səviyyəsi də çox yüksəkdir, ordumuzda xidmət edən hər bir əsgər və zabit yüksək vətənpərvərlik ruhuna malikdir. Ordu həyatında kimliyindən asılı olmayaraq, öz peşəsinin əzəmətliliyinə görə qürur hissi keçirməyən hərbçi yoxdur. Bütün bunlar isə ianələr hesabına büdcəsini təmin etməyə çalışan Ermənistanı narahat etməklə yanaşı, həm də qorxuya salır. Düşmənlərimiz yaxşı bilirlər ki, hərbi əməliyyatlar başlayarsa, ilk olaraq ən ağır zərbəni Naxçıvandan ala bilərlər.

Bu gün Naxçıvanda ordu quruculuğuna xüsusi diqqət göstərilir, bu istiqamətdə görülən işlər birbaşa muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə həyata keçirilir. Bunun nəticəsidir ki, öz inkişafı və tərəqqisi ilə bu gün düşmənə gözdağına çevrilən Naxçıvanda son 20 ildə etibarlı müdafiə təminatı ilə bağlı sistemli tədbirlər həyata keçirilib. Elə ötən ay Naxçıvana səfər edən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışını edib. Yaradılmış şəraitlə bağlı məlumatlandırılan Ali Baş Komandan sonra silahlanmaya qəbul edilən hərbi texnikalarla tanış olub. Prezident İlham Əliyev bu sahədə görülən işləri belə qiymətləndirib: ***"...Bu gün, eyni zamanda, hərbi hissədə olarkən bir daha gördüm ki, Naxçıvanın hərbi potensialı da lazımi səviyyədədir. Biz bu istiqamətdə də böyük iş aparmışdıq və bu gün də aparırıq. Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır. Bu gün olduğum hərbi hissədə ən yüksək şərait yaradılıb. Yəni Naxçıvanın hərbi potensialı və müdafiə qabiliyyəti daim diqqət mərkəzindədir".***

Bu gün Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər keçirilir. Üzərindən əsrin dörddəbiri qədər zaman keçsə də, xalqımız törədilən cinayətləri, qanlı hadisələri unutmayıb. Ötən dövrdə Azərbaycan Ordusu böyük bir inkişaf yolu keçərək Cənubi Qafqazın ən güclü ordusuna çevrilib. Ordumuzun ön xətdə yerləşən hərbi birləşmələri 2016-cı ilin aprel ayında baş vermiş düşmən təxribatına layiqli cavab verərək nəyə qadir olduğunu bütün dünyaya göstərib. O vaxta qədər dövlətimizin sülhsevər siyasətinə uyğun olaraq müdafiə taktikasını seçən ordumuz özünün çox az bir gücündən istifadə edərək erməni ordusu haqqında yaradılmış saxta vətənpərvərlik mifini darmadağın edib və ərazilərimizin bir hissəsini düşmən tapdağından təmizləyib. Nəticədə, Silahlı Qüvvələrimiz işğal altında olan ərazilərimizin mühüm bir hissəsinə nəzarət etmək imkanı əldə edib. Tam bir ay bundan əvvəl – yanvarın 24-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin aparılması haqqında sərəncam imzalayıb. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranıb. Ötən müddətdə Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatik korpuslarının əməkdaşları və kütləvi informasiya vasitələrinin nümayəndələri Cocuq Mərcanlı kəndində olublar. Onlar erməni vəhşiliyi nəticəsində dağıdılmış yaşayış məskənini öz gözləri ilə görüblər və ölkə başçısının müvafiq sərəncamının icrasına uyğun olaraq, yeni infrastrukturun yaradılmasına şahidlik ediblər. Hər kəs Cocuq Mərcanlını işğal edilmiş torpaqlarımıza qayıdışın ilk nümunəsi kimi qəbul edib və Azərbaycanın sülhpərvər, qurucu siyasətindəki qətiyyətini təqdir edib.

Bu hadisələri bir daha yada salanda ordumuzun bugünkü qüdrəti ilə fəxr etməmək, qürur hissi keçirməmək olmur. Ona görə qürur hissi keçiririk ki, bu gün ön cəbhədə bu xalqın təpədən-dırnağadək silahlanmış vətənpərvər oğulları, peşəkar hərbçiləri, arxada isə öz yurduna bağlı zəhmətkeş insanları dayanır. Təəssüf ediləcək məqamlar da var. Onlardan biri odur ki, əgər ötən əsrin 90-cı illərinin əvvəllərində bugünkü qüdrətə malik nizami ordumuz, milli liderimiz olsaydı, nə Xocalı soyqırımı törədilə, nə də torpaqlarımızın 20 faizi işğal oluna bilərdi. Hələ ordumuz Xocalı, Qaradağlı, Daşaltı kimi əməliyyatlarda və digər ərazilərimizdə öldürülmüş yaşlı və cavanların, qadın və uşaqların qisasını almayıb. Qoy düşmənlərimiz unutmasınlar ki, bu gün üzərində müvəqqəti gəzdikləri torpaqlarda Azərbaycan əsgərinə ölməmək üçün yalvaracaqları gün uzaqda deyil.

**Səbuhi HƏSƏNOV**

# Biz o yurda qayıdacaq, qisasımızı alacağıq



***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Qarnizonunun şəxsi heyətinin iştirakı ilə Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbiri Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov açıb.***

Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Xocalı şəhərində törədilmiş erməni vəhşiliyi XX əsrin ən böyük faciəsidir" mövzusunda çıxış edərək bildirib ki, Xocalı soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil olub. Erməni quldurları Xocalı şəhərini yerlə yeksan edib, köməksiz, dinc əhalini amansızlıqla qətlə yetiriblər. Xocalı faciəsinə hüquqi-siyasi qiyməti ilk dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev verib.

Sonra Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının ifasında Xocalı faciəsinə həsr olunmuş şeir-kompozisiya təqdim olunub.

Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsinin əsgəri Fəxri Əlizadə çıxışında deyib ki, 25 il bundan əvvəl erməni faşistlərinin qocalara, qadın və uşaqlara rəhm etmədən Xocalıda törətdiyi bu faciə insanlığa vurulmuş ləkədir. Bu hadisəni törətməklə onlar düşünürdülər ki, bununla xalqımızın gözünü qorxudacaq, daha böyük cinayətlərə əl atacaqlar. Ancaq unudurlar ki, xalqımız hər zaman özünün vətənpərvər, igid oğulları ilə fəxr edib. Bu gün ordumuz işğal altında olan bütün torpaqlarımızı, o cümlədən Xocalını azad etməyə hazırdır. Qoy düşmənlərimiz yaddan çıxarmasınlar ki, onlara budəfəki zərbəmiz çox güclü və məhvedici olacaq.

"Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev "Xocalıda törədilən hadisələr qan yaddaşımızdır" mövzusunda çıxış edərək bildirib ki, Xocalı soyqırımı xalqımıza qarşı bir neçə əsr əvvəl başlanan və həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə erməni şovinistlərinin məkrli işğal və ilhaq siyasəti nəticəsində həyata keçirilən sistemli deportasiya və soyqırımı siyasəti 1988-1989-cu illərdə özünün ən yüksək nöqtəsinə çatıb, nəticədə, bu gün Ermənistan adlanan əzəli Azərbaycan torpaqlarında bir nəfər də soydaşımız qalmayıb.

Qeyd olunub ki, Xocalı həm də bu ərazilərin tarixən azərbaycanlılara məxsus olduğunu sübut edən bir yaşayış məskəni idi. Qarabağın tarixini və mədəni irsimizi özündə yaşadan mühüm abidələrin bir qrupu Xocalı şəhəri ətrafında yerləşir. Bu abidələr Tunc dövrünün bütün mərhələlərini izləməyə imkan verir. Onların arasında Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanlarının özünəməxsus yeri vardır.

Elbrus İsayev deyib ki, Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində son illər xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Xocalıya ədalət" kampaniyası beynəlxalq aləmin bu faciə haqqında düzgün məlumatlandırılması məqsədi daşıyır.

Tədbir iştirakçıları Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının ifasında "Xocalı harayı" kompozisiyasını izlədikdən sonra Xocalı faciəsinə həsr olunmuş "Azərbaycan – yurdum mənim" filminə baxıblar.

**Xəbərlər şöbəsi**

# Xocalı soyqırımı: əsrimizin faciəsi

## *Xatirə Muzeyində bu mövzuda interaktiv dərs keçilib*

*Naxçıvan şəhərindəki Şəhidlər xiyabanının qarşısında dayanmışam. Xəyalımda ötən əsrin 80-ci illərinin sonlarında başlayan hadisələri canlandırıram. Gözlərim önündən 20 Yanvar hadisələri keçir. Bir il sonra belə faciəni Azərbaycanın qədim torpağı Xocalı da yaşadı. Xalqımızın qəhrəmanlıq tarixinin belə səhifələri çoxdur. Bu səhifələrə ölkəmizin müstəqilliyi, azadlığı uğrunda canından keçən, şəhidlik zirvəsinə ucalan eloğullarımızın mənfur düşmənə qarşı mübarizəyə qalxdığını bütün dünyaya bəyan edən faciələr yazılıb.*





Şahbuz rayon Kolanı kənd tam orta məktəbi

Yaxınlıqda yerləşən Xatirə Muzeyinə daxil oluram. Giriş otaqda "Erməni vəhşiliyi – Xocalı faciəsi" və "XX əsrin faciəsi" adlı guşələr yaradılıb. Burada akademiklər Cəlal Əliyev və Budaq Budaqovun "Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı", İsmayıl Hacıyevin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", həmçinin Tatyana Çaladzenin "Qarabağ genosidi: sənədli xronika" və digər kitab, jurnal, qəzet materialları özünə yer alıb. Şəkillərə həyəcansız baxmaq olmur. Bu şəkillərin hər biri xalqımızın azadlıq uğrunda mübarizəsinin bir anını əks etdirməklə bugünkü gənclərdə vətənpərvərlik hisslərini gücləndirir, bu mübarizədə canından keçən qəhrəman övladlarımıza sevgi və ehtiram duyğularını artırır. Ona görə də bu muzey hər bir yurdsevər azərbaycanlı üçün müqəddəs bir ünvandır.

Muzeyi gəzirəm, şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş sənət əsərlərinə, onların şəxsi əşyalarına, fotoşəkillərinə, keçdikləri şərəfli döyüş yollarını əks etdirən sənədlərə, eksponatlara baxıram. Bütün bunlar bizi bir anlığa keçmişə qayıtmağa, düşünməyə, başımıza zaman-zaman gətirilən faciələrdən nəticə çıxarmağa sövq edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1997-ci ildə imzaladığı Sərəncamla "Şəhidlər muzeyi" adı ilə yaradılaraq 500 eksponatla fəaliyyətə başlayan, 8 avqust 2000-ci il tarixdən "Xatirə Muzeyi" adlandırılan bu mədəniyyət müəssisəsində hal-hazırda 2000-dən artıq eksponat var. Xronoloji ardıcıllıqla qurulan muzeyin ekspozisiyasında Azərbaycanda baş verən qırğınlara və törədilən etnik qarşıdurmalara ilk dəfə hüquqi-siyasi qiymət verən ümummilli lider Heydər Əliyevin 1918-ci il 31 mart, 1990-cı il 20 yanvar, 1992-ci il 26 fevral faciələri ilə bağlı imzaladığı sərəncamların suratləri yer alıb.

Muzeydəki növbəti guşənin qarşısında dayanmışam. Burada 1918-1920-ci illərdə erməni daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən faciələri əks etdirən material, fotoşəkil və sənədlər sərgilənir. 1918-1920-ci illərdə erməni daşnakları hücum edərək yaşayış məntəqələrimizi talayır, əhalini isə xüsusi amansızlıqla qətlə yetirirdilər. Həmin illərdə təkcə Bakı şəhərində 70 min insan qətlə yetirilmişdi. Andranikin başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvan mahalına da hücum etmişdilər. Yaycı kəndi tamamilə yandırılmış, əhaliyə divan tutulmuş, Naxçıvanda 73 min 727 nəfər qətlə yetirilmişdi.

Muzeyin guşələrində xalqımızın zəfər dastanının, Şərqdə ilk demokratik respublikanın tarixini əks etdirən nümunələr də var. Doğma diyarımız Naxçıvanın taleyini həll edən 1921-ci il 16 mart tarixli Moskva, 1921-ci il 13 oktyabr tarixli Qars müqavilələrinin suratləri muzeyin digər bir guşəsindədir.

Birinci və İkinci Dünya müharibələrində Azərbaycanda baş verən hadisələr haqqında məlumat və materiallar xalqımızın cəsarətini özündə əks etdirir. İkinci Dünya müharibəsi illərində azərbaycanlıların həm ön cəbhədə, həm də arxa cəbhədə hünər və dözümü bütün dünyaya məlumdur. Bu müharibədə 700 mindən artıq azərbaycanlı döyüşüb. 300 min azərbaycanlı həlak olub, 2000 döyüşçü medal və ordenlərlə təltif edilib. 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Üç Sovet İttifaqı Qəhrəmanı Naxçıvan torpağının yetirməsidir.

Muzeydə Qəzənfər Əkbərov, Abbas Quliyev və Nəcəfqulu Rəfiyevin doğma yurddan minlərlə kilometr uzaqda göstərdikləri igidliyi özündə əks etdirən sənədləri, ordenləri, fotoşəkilləri və şəxsi əşyaları var.



Ordubad rayon Aşağı Əylis kənd tam orta məktəbi



Sədərək kənd 2 nömrəli tam orta məktəb

Burada nümayiş etdirilən bir şəklə baxıram. Bu, 1990-cı ildə Sədərəkdə könüllülərdən ibarət özünümüdafiə dəstəsinin fotoşəkidir. Bu, sadə, cansız bir fotoşəkil yox, xalqın qeyrətinin, vətən sevgisinin rəmzidir. Bu fotoşəkildəki insanların çoxu yaşamır bu gün. Onlar öz ölümləri ilə ölümsüzlüyə qovuşublar.

Torpağımız uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar xalqımızın övladlarıdır. Cəbhədəki şücaətinə görə 213 döyüşçü Milli Qəhrəman adına layiq görülüb. Onlar arasında naxçıvanlılar da var və bu qəhrəmanlar haqqında muzeydə ətraflı məlumat almaq olar.

...Gələcək nəslin azad, suveren yaşaması üçün onlar öz canlarından keçiblər. Xalqımız bu qəhrəman övladlarını unutmur, unutmayacaq da.

Bütün bunlar barədə Xatirə Muzeyində keçilən açıq dərslərdə, təhsil müəssisələri ilə yaradılan interaktiv əlaqə zamanı ətraflı məlumat verilir. Məqsəd isə ondan ibarətdir ki, bugünkü gənclik Vətənə, dövlətə, müstəqilliyimizə sadiq ruhda böyüsün, xalqımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik adlı yüksək məqama ucalanların keçdikləri şərəfli ömür yollarını öyrənsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək Tədbirlər Planı"na əsasən, dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəbləri və Heydər Əliyev adına Hərbi Liseylə Xatirə Muzeyi arasında interaktiv əlaqə yaradılaraq bir dərs saatı Xocalı faciəsinin 25-ci ildönümünə həsr olundu. Dərsdə muzeyin bələdçisi Rəqsanə Kərimova bildirdi ki, muzey gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Burada Azərbaycan torpaqlarında, o cümlədən Xocalıda ermənilər tərəfindən törədilən soyqırımı və onun qurbanlarının faciəli qətlini əks etdirən sənəd və materiallar, habelə torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən Vətən övladlarının keçdiyi şərəfli həyat yolunu əks etdirən zəngin eksponatlar nümayiş etdirilir.

Rəqsanə Kərimova Xocalı faciəsi, bu faciənin törədilməsi səbəbləri, Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsində ulu öndərimiz Heydər Əliyevin misilsiz xidmətləri, 25 il ərzində Xocalı faciəsinin dünyanın bir sıra parlamentlərində tanınması üçün Azərbaycan dövlətinin və diasporlarının fəaliyyəti barədə danışıb.

Qeyd edək ki, Xatirə Muzeyində keçilən interaktiv dərsi muxtar respublikanın 225 təhsil müəssisəsindən izləyiblər.

**Muxtar MƏMMƏDOV**

## Bir dərs saatı Xocalı soyqırımına həsr olunub



Xocalı soyqırımı xalqımıza qarşı bir neçə əsr əvvəl başlanan və həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. Həmin faciənin törədilməsi ilə yüzlərlə soydaşımız qətlə yetirilib, işgəncələrə məruz qalıb. Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında mənən sınmayıb, sonadək vuruşaraq Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstəriblər.

Dünən muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə Xocalı soyqırımına həsr olunmuş bir dərs saatında həmin qanlı faciə bir daha xatırlanıb, dərslərdə Xocalı soyqırımına hüquqi-siyasi qiymətin verilməsindən ətraflı bəhs olunub, bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərin əhəmiyyəti vurğulanıb.

# Salam, can Xocalım!

Salam, mənim can Xocalım, könlü, bağrı qan Xocalım! 25 il bundan öncə Vətənimin köksündəcə döyünən bir ürək idin. Qarabağın sinəsindən qopan nəfəs, yüz illərdən gələn bir səs, yaşamağa, yaratmağa həvəs idin. Yaşatmadı məlun düşmən, yaşatmadı qara tale, yandırıldın torpağında qaldı küllər, yandırıldın soldu getdi qar altından baş qaldıran al çiçəklər. Övladların düşmən əldə əsir oldu, yesir oldu, uşaqların qar üstündə "Ana" deyib şəhid oldu. Bəyaz oldu bircə gündə anaların gur saçları, qadınların bətnindəcə öldürüldü övladları. Şəhid oldu sənin üçün nər kişilər, bu dərdinə dözmədilər ər kişilər. Qar üstünə töküləndə al qanları, sızım-sızım sızlayanda yaraları haray çıxdı qanla dolu sinələrdən: – Can Xocalım! Yad əllərə əsir düşən mənim bağrı qan Xocalım!

İyirmi beş il keçir artıq bu dəhşətin üzərindən. Bir zamanlar körpə səsi gələn evlər, xanimanlar, gen küçələr, tikililər silinibdir Yer üzündən. Bir zamanlar bülbül ötən bağlarında indi bayquş yuva salıb, bu kölgələr şəhərində keçmişlərdən nə xatirə, nə iz qalıb. Məlun düşmən daşıyıbdı hər daşını, kərpicini, daşıyıbdı el malını, sərvətini, bax beləcə, can Xocalım, çox sahibsiz, yetim qalıb.

...Hələ də Xocalım qan içindədi, imdada çağırır can üstündədi, əlləri qan olmuş mənfur düşmənin əlində yesirdi, əsarətdədi. Bu qan ana qanı, bacı qanıdı, bu qan son gülləylə ömrə son verən, canına qıyan qardaş qanıdı. Bu qan cavan qanı, qoca qanıdı. Bu qanlar qar üstə donub can verən, hələ dil açmamış körpə qanıdı.

Cavabsız, cəzasız qalan cinayət yeni cinayətlər gətirər, əlbət. Çox keçməz ki, ordumun sonsuz gücü, qüdrəti gətirər o yurdlara tarixi ədaləti. Müqəddəs bayrağımız ucalar Xocalıda, Qarabağ şikəstəsi səs salar Xocalıda. Yenə azad yaşayar mənim əziz Xocalım, mənim doğma Vətənim, mənim canım Xocalım!

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.*

# İnsanlıq əleyhinə törədilmiş cinayət

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov açıb. Qeyd olunub ki, yüzlərlə dinc insanın qətlə yetirilməsinə dünya tarixində nadir hallarda rast gəlmək olur. İnsanlığa böyük ləkə gətirən Xocalı faciəsi uşaq, qadın, qoca qətli ilə yaddaşlarda yaşayır. Bu faciə erməni separatçılarının və terrorçularının Dağlıq Qarabağın azərbaycanlılardan təmizlənməsi istiqamətində məkrli addımlarının nəticəsində baş verib.

Bildirilib ki, son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər çəkilib, bununla bağlı internet saytları yaradılıb. Beynəlxalq aləmin Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməsi istiqamətində atılan uğurlu addımlar sayəsində bir sıra dövlətlər, o cümlədən ABŞ-ın 21 ştatında Xocalı soyqırımı tanınıb. Bu məsələdə "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının xüsusi rolu var.

Sonra şuranın əməkdaşlarından Səbuhi Hüseynovun, Ceyhun Məmmədovun, Gözəl Qənbərovanın, Eyvaz Əsgərovun, Şahin Nağızadənin, Sənan Hüseynovun, Leyla Abbasovanın və Camal Əliyevin çıxışları olub. Çıxışlarda ulu öndər Heydər Əliyevin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində göstərdiyi səylərdən, apardığı məqsədyönlü siyasətdən söz açılıb, bu siyasətin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən davam etdirildiyi vurğulanıb.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 152